Uşaq və gənclərin intellektual fəaliyyətlərinin dəstəklənməsi və cəmiyyətin inkişafında təhsilin rolunun daha dərindən dərk olunmasına töhfə vermək məqsədilə formalaşdırılan "Təhsil" televiziyası yeni verilişin Azərbaycan variantını hazırlayıb. Veriliş ölkəmizdə beynəlxalq "Jeopardy" intellektual oyun-viktorinanın lisenziyası əsasında yayımlanır.

Bir çox ölkələrdə tanınan "Jeopardy" intellektual oyun-viktorinanın müəllifi Merv Qriffindir. Veriliş ilk dəfə 51 il öncə ABŞ-da efirə çıxıb və dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. Rusiyada verilişin analoqu "Öz oyunun" (Svoya iqra), Türkiyədə "Böyük risk" adlanır. Verilişin Azərbaycan variantı isə "61"dir. Oyun zamanı iştirakçılara məhz bu sayda sual verilir. Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin dəstəklədiyi veriliş AzTV telekanalında aparıcı Leyla Quliyevanın təqdimatında həftədə bir dəfə çərşənbə günləri efirə çıxacaq. Qeyd edək ki, buna qədər "Jeopardy" verilişinin tarixində qadın aparıcı olmayıb.Veriliş "Game TV" şirkəti tərəfindən hazırlanıb.

Layihənin məqsədi Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"na uyğun olaraq, təhsilverənlər, təhsilalanlar və valideynlər üçün maarifləndirici intellektual oyunların təşkilinə dəstək verməkdən ibarətdir.